# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## Şəhid Əli Əliyev



Şəhidlik məqamına ucalan Azərbaycan Ordusunun hərbi qulluqçusu, baş leytenant Əli Əliyev doğulduğu Şərur rayonunun Yengicə kəndində son mənzilə yola salınıb.

Şəhid baş leytenant Əli Əliyevin cənazəsi doğulduğu Şərur rayonunun Yengicə kəndində izdihamla qarşılanıb, "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı ilə Şərur Şəhidlər xiyabanında son mənzilə yola salınıb. Vida mərasimində şəhidin ruhuna dualar oxunub.

Çıxış edənlər qeyd ediblər ki, Vətəninin qəhrəman övladı, şəhid baş leytenant Əli Əliyev 44 günlük Vətən müharibəsində qəhrəmanlıq və şücaətlər göstərib, "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. Həmçinin Azərbaycan Ordusunun keçirdiyi "Qisas" və digər döyüş əməliyyatlarında fəal iştirak edib, odlu-alovlu döyüş meydanında mətanətlə vuruşub. Fərrux kəndinin işğaldan azad olunmasında da qəhrəman şəhidimizin xidmətləri olub. Baş leytenant Əli Əliyev sentyabrın 12-də Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatının qarşısını alarkən şəhidlik zirvəsinə yüksəlib.

## Şəhid Təbriz Rəhimov



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan hərbi qulluqçu Rəhimov Təbriz Rəhim oğlu Yevlax rayonunun Gülövşə kəndində torpağa tapşırılıb. Vida mərasimində Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev, Milli Məclis Sədrinin I müavini, Milli Məclisin deputatı Əli Hüseynli, Milli Məclisin deputatı İlham Məmmədov, Dövlət Sərhəd Xidməti Akademiyasının rəisi, general-mayor Aqil Babayev, YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhidin yaxınları, kənd sakinləri iştirak ediblər. Təbriz Rəhimovun nəşi kənd qəbiristanlığında yaylım atəş sədaları altında dəfn olunub.

Dəfn mərasiminin iştirakçıları sonra şəhidin yaşadığı evə gələrək ailə üzvləri ilə görüşüb, onlara başsağlığı veriblər.

Görüş zamanı qeyd edilib ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tərəfindən 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız azad olunub. Torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksələn Təbriz kimi igid oğullarımız daim xalqımızın qəlbində yaşayacaq. Şəhidin atası Rəhim Rəhimov "Vətən sağ olsun" deyərək oğlu ilə fəxr etdiyini bildirib.

## Şəhid Üzeyir Əliyev, Asiman İmamverdiyev, Erkin Hüseynov



Dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribatın qarşısını alarkən şəhid olan əsgər Əliyev Üzeyir Sabir oğlu, gizir İmamverdiyev Asiman Mehman oğlu və leytenant Hüseynov Erkin Ədalət oğlu torpağa tapşırılıblar.

Azərbaycan Ordusunun əsgəri, 1993-cü il təvəllüdlü şəhid Üzeyir Əliyevin nəşi vida mərasimindən sonra Göygöl rayonuna yola salınıb. O, Göygölün Şəhidlər xiyabanında dəfn olunub.

Azərbaycan Ordusunun giziri, 1988-ci il təvəllüdlü Asiman İmamverdiyev və 1998-ci il təvəllüdlü leytenant Hüseynov Erkin Ədalət oğlu isə Gəncənin Şəhidlər xiyabanında torpağa tapşırılıblar.

## Şəhid Bəxtiyar Muradov



Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi təxribatın qarşısını alarkən şəhid olan 2003-cü il təvəllüdlü Muradov Bəxtiyar Güloğlan oğlu sentyabrın 14-də doğulduğu Sumqayıt şəhərində torpağa tapşırılıb.

Şəhidin məzarı üstünə əklil və tər qərənfillər qoyulub.

Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı şəhidin ailəsinə təqdim edilib.

## Şəhid Fərid Rüstəmov

Ermənistan ordusunun növbəti təxribatının qarşısını alarkən şəhid olan Dövlət Sərhəd Xidmətinin kiçik giziri şəhid Fərid No-



fəl oğlu Rüstəmovla Zərdabda vida mərasimi keçirilib. Fərid Rüstəmovun nəşi rayonda böyük izdihamla qarşılanıb. Onun nəşi əvvəlcə böyüyüb boya-başa çatdığı Kəndəbil kəndindəki evinə gətirilib. Vida mərasimində iştirak edən izdihamlı kütlə "Qarabağ Azərbaycandır", "Şəhidlər ölməz, Vətən bölünməz" kimi şüarlarla mənfur düşmənə qarşı öz nifrətlərini bildiriblər.

Vida mərasimindən sonra şəhidimizin nəşi Kəndəbil kənd qəbiristanlığında torpağa tapşırılıb.

Kiçik gizir Fərid Rüstəmov ailəli idi və 2 övladı Vətənə əmanət qalıb.

## Şəhid Emin Fərzəliyev



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə yüksələn əsgər Fərzəliyev Emin Elnur oğlu sentyabrın 14-də Ağcabədidə izdihamla dəfn edilib.

Şəhidin nəşi Ağcabədi şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub.

Tabuta bükülmüş Azərbaycan bayrağı şəhidin atasına təqdim olunub.

## Şəhid Saleh Qurbanov



Ermənistan silahlı qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan kapitan Saleh Möhübbət oğlu Qurbanov sentyabrın 14-də Xızıda torpağa tapşırılıb.

Qəhrəman döyüşçü doğulub boya-başa çatdığı Giləzi qəsəbəsində dəfn olunub.

Dəfn mərasimində çıxış edənlər Saleh Qurbanovun şərəfli həyat və döyüş yolundan danışıb, şəhidlərimizin qanının yerdə qalmadığını vurğulayıblar. Düşmən təxribatının qarşısı qətiyyətlə alınıb, canlı qüvvəsi, hərbi texnika və infrastrukturu məhv edilib.

32 yaşlı Saleh Qurbanov ailəli idi. Bir övladı Vətənə əmanət qalıb.

Şəhidin cənazəsi Giləzi qəsəbə kənd qəbiristanlığında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı şəhidin azyaşlı oğluna təqdim edilib.

## Şəhid Elnur Rüstəmov



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan baş gizir Rüstəmov Elnur Faid oğlu sentyabrın 14-də Xaçmazda torpağa tapşırılıb.

Qəhrəman döyüşçü doğulub boya-başa çatdığı Əbilyatağı kəndində dəfn olunub.

32 yaşlı Elnur Rüstəmov Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi xidmət edirdi. Ailəli idi. Üç övladı Vətənə əmanət qaldı.

Şəhidin cənazəsi Əbilyataq kənd qəbiristanlığında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub. Şəhidin nəşi üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

## Şəhid Ülvi Nəsirov



Dövlət sərhədində düşmən təxribatının qarşısını alarkən şəhid olan kiçik gizir Nəsirov Ülvi Əsədulla oğlu Saatlıda izdihamla dəfn edilib.

Şəhidin üçrəngli bayrağa bükülmüş nəşi doğulduğu Saatlı rayonunun Qaranuru kəndinə gətirilib. Ülvi Nəsirovla doğulduğu ocaqda vida mərasimi keçirilib.

Ülvi Nəsirovun nəşi kənd qəbiristanlığında torpağa tapşırılıb. Şəhidin nəşinin büküldüyü üçrəngli bayrağımız atasına təhvil verilib.

Sonda yaylım atəşi açılıb.

## Şəhid Ümid Həsənov



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan hərbi qulluqçu Həsənov Ümid İlqar oğlu sentyabrın 14-də doğulub boya-başa çatdığı Quba rayonunun İsnovqışlaq kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində izdiham yaşanıb. Çıxışlarda düşmənin genişmiqyaslı təxribatın qarşısının qətiyyətlə alındığı, hərbçilərimizin döyüş meydanında şücaət göstərdiyi vurğulanıb.

21 yaşlı Ümid Həsənov Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu kimi xidmət edirdi.

Şəhidin cənazəsi İsnovqışlaq kənd qəbiristanlığında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub.

Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

## Şəhid Nihat Qasımov



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan əsgər Nihat Mehman oğlu Qasımov sentyabrın 14-də doğulub boya-başa çatdığı Şəkinin Kiçik Dəhnə kəndində dəfn olunub.

Şəhidin dəfn mərasimində izdiham yaşanıb. Çıxışlarda düşmənin genişmiqyaslı təxribatının qarşısının qətiyyətlə alındığı, şəhidlərin qanının yerdə qalmadığı vurğulanıb.

Şəhidin cənazəsi Kiçik Dəhnə kəndindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub.

Azərbaycanın Dövlət Himni səsləndirilib. Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı şəhidin ailəsinə təqdim edilib. Sonda şəhidin xatirəsinə yaylım atəşi açılıb.

## Şəhid Sərxan Ömərov



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin zabiti, leytenant, 1999-cu il təvəllüdlü Sərxan Ömərov doğulduğu Zaqatala rayonunun Yuxarı Tala kəndində torpağa tapşırılıb.

Şəhid leytenant yaylım atəşi altında torpağa tapşırılıb, ruhuna dualar oxunub.

## Şəhid Cavidan Bədəlov



Erməni silahlı birləşmələrinin təxribatını dəf edərkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalan igidlərimizdən biri də baş leytenant Cavidan Bədəlovdur. Şəhidimiz doğulub boya-başa çatdığı İsmayıllı rayonunun Talıstan kəndində dəfn olunub.

Vida mərasimdən sonra üçrəngli, ay-ulduzlu bayrağa bükülən şəhidimizin nəşi Talıstan kənd qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimindən sonra şəhidimizin döyüş yolundan söhbət açılıb, "Qurani Kərim"dən ayələr oxunub.

## Şəhid Vadim Qocayev



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə yüksələn Vadim Qocayev atası Alik Qocayevlə birgə Qobustanın Sündü kəndindəki Şəhidlər xiyabanında dəfn olunub.

Vadim Qocayevin atası Alik Qocayev ürəktutmadan dünyasını dəyişib. Şəhid oğlunun nəşini gətirmək üçün Gəncəyə yollanan ata oğlunun cənazəsini təhvil almazdan öncə infarkt keçirərək dünyasını dəyişib.

Ata və oğulun cənazələri Qobustan rayonuna gətirilərək Şəhidlər xiyabanında dəfn edilib. Onların yaşadığı evdə cənazə namazı qılınıb, ruhuna dualar oxunub.

Qeyd edək ki, 1997-ci il təvəllüdlü şəhid Vadim Qocayev Qobustanın Sündü kənd sakinidir. Onun bir qardaşı Dövlət Sərhəd Xidmətində xidmət edir, digəri isə əsgərdir. Vətən müharibəsi iştirakçısı olan Vadimin bir yaşlı qızı var, bu günlərdə onun ikinci övladı dünyaya gələcək.

## Şəhid Nəzər Əzizov



Kürdəmirdə Azərbaycan Ordusunun giziri, şəhid Nəzər Ağacəlil oğlu Əzizovun dəfn mərasimi keçirilib.

Şəhid Nəzər Əzizovun nəşi boya-başa çatdığı Dəyirmanlı kəndindəki evinə gətirilib, sonra isə rayonun Şəhidlər xiyabanında dəfn olunub.

Qeyd edək ki, gizir Nəzər Ağacəlil oğlu Əzizov sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdikləri genişmiqyaslı təxribat zamanı şəhidlik zirvəsinə yüksəlib. Nəzər Əzizov 2016-cı ildə Aprel döyüşlərinin və 44 günlük Vətən müharibəsinin iştirakçısı olub. Xidməti dövründə bir neçə medal və fəxri fərmanla təltif olunub.

Ailəli idi, 2 övladı var.

## Şəhid Nail Abbaslı



Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhid olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, kiçik çavuş, 1997-ci il təvəllüdlü Abbaslı Nail Adil oğlu sentyabrın 14-də doğulduğu Oğuz rayonunun Qarabaldır kəndində torpağa tapşırılıb.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmadığını, düşməndən amansız qisas alındığını bildiriblər.

Tabut üzərinə örtülmüş üçrəngli Azərbaycan bayrağı şəhidin ailəsinə təqdim edilib.

## Şəhid Yunis Kazımov



Erməni silahlı qüvvələrinin təxribatı nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu, baş leytenant Yunis Kazımov Qazax rayonunun Kəmərli kəndində dəfn edilib. Yunis Kazımov son mənzilə böyük izdihamla yola salınıb.

Şəhid Yunis Kazımovla vida mərasiminə toplaşanlar onu ehtiram və sevgi ilə yola salıblar.

Şəhidin nəşinə bükülən üçrəngli bayrağımız atasına təqdim edilib. Sonra yaylım atəşi açılıb. Yunis Kazımov ailəli idi, 3 aylıq oğul övladı bizlərə əmanət qalıb.

Vətən uğrunda canından keçən baş leytenant Yunis Kazımov Xocavənd, Qubadlı, Hadrut, Cəbrayıl və Şuşanın azad olunmasına görə medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

## Şəhid Rəfail Fətullayev



Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.

Neftçala rayonunun Bankə qəsəbəsində anadan olan Azərbaycan Ordusunun hərbi qulluqçusu Fətullayev Rəfail Rüfət oğlu təxribatın qarşısını alarkən qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

Şəhid Rəfail Fətullayev sentyabrın 14-də Neftçala şəhər mərkəzi qəbiristanlığında dəfn olunub.

*AZƏRTAC*